# AZƏRBAYCAN RESPUBLİKASI
# DÖVLƏT STATİSTİKA KOMİTƏSİNİN APELLYASİYA ŞURASI

## Q Ə R A R

**№ 1**

**Bakı şəhəri** **13 aprel 2022-ci il**

Apellyasiya Şurası Dövlət Statistika Komitəsi sədrinin birinci müavini - Apellyasiya Şurasının sədri Vahab Feyruz oğlu Məmmədovun sədrliyi ilə Ülkər Elçin qızı Yusifovanın Dövlət Statistika Komitəsi aparatında İnformasiya texnologiyaları şöbəsinin Məlumat bazalarının idarə olunması və tətbiqi proqram təminatı sektorunun aparıcı məsləhətçi vəzifəsinin tutulması üçün 2022-ci il mart ayının 01-də keçirilən müsabiqə üzrə müsahibənin nəticəsinə dair şikayətinə baxaraq müəyyən etdi:

Namizəd Yusifova Ülkər Elçin qızı Dövlət Statistika Komitəsi aparatında İnformasiya texnologiyaları şöbəsinin Məlumat bazalarının idarə olunması və tətbiqi proqram təminatı sektorunun aparıcı məsləhətçi vəzifəsinin tutulması üçün Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən 2021-ci il dekabr ayının 27-də elan edilmiş müsabiqənin müsahibə mərhələsində iştirak etmişdir. Müsahibə 2022-ci il mart ayının 01-də Dövlət Statistika Komitəsinin İnformasiya texnologiyaları şöbəsinin müdiri Çimnaz Əliyeva, Dövlət İmtahan Mərkəzinin nümayəndəsi Hüseyn Bəşirov və müstəqil ekspert Qabil Əliyevdən ibarət komissiya tərəfindən keçirilmişdir. Yusifova Ülkər Elçin qızına müsahibə komissiyasının üzvlərindən H. Bəşirov və Q. Əliyev 16 bal, Ç. Əliyeva 13 bal vermiş və Azərbaycan Respublikası Prezidentinin 21 iyun 2017-ci il tarixli 1480 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət qulluğu vəzifəsinin tutulması məqsədi ilə müsahibə keçirilməsi Qaydası"nın 5.6-cı bəndinə uyğun olaraq müsahibə komissiyası üzvlərinin namizədin qiymətləndirilməsi zamanı verdiyi ümumi ballar arasında 3 bal fərq olduğuna görə müsahibənin nəticəsi etibarsız hesab edilmişdir.

Müsahibənin nəticəsindən narazı qalan namizəd "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 29-1-ci maddəsinə və "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 29 dekabr tarixli 435 nömrəli Fərmanının 3.23-1.1-ci yarımbəndinə əsasən Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin Apellyasiya Şurasına 10.03.2022-ci il tarixdə şikayət ərizəsi ilə müraciət etmişdir.

Apellyasiya Şurasının iclasında aparılmış müzakirələr zamanı namizədin vəzifəyə uyğun hesab edilməsi barədə müsahibə komissiyasının üzvləri arasında fikir ayrılığının yarandığı müəyyən edilmişdir.

Yuxarıda göstərilənlər və Apellyasiya Şurası üzvlərinin müzakirələrdən sonra gəldiyi yekun nəticə nəzərə alınaraq Dövlət Statistika Komitəsinin Apellyasiya Şurası **qərara aldı**:

1. Yusifova Ülkər Elçin qızının 10 mart 2022-ci il tarixli apellyasiya şikayəti qismən təmin edilsin və Dövlət Statistika Komitəsi aparatında İnformasiya texnologiyaları şöbəsinin

Məlumat bazalarının idarə olunması və tətbiqi proqram təminatı sektorunun aparıcı məsləhətçi vəzifəsinin tutulması üçün 2022-ci il mart ayının 01-də keçirilən müsabiqə üzrə müsahibənin nəticəsi ləğv edilsin, yeni tərkibdə müsahibə komissiyası yaradılsın və həmin namizədlə yenidən müsahibə keçirilsin.

2. S.Süleymanova Dövlət Statistika Komitəsinin Apellyasiya Şurasının qərarı qəbul edildiyi gündən onun surətinin üç gün müddətində Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinə təqdim edilməsini təmin etsin.

3. Qərardan Azərbaycan Respublikasının Prezidenti yanında Apellyasiya Şurasına şikayət verilə bilər.

**Sədr** **Vahab Məmmədov**